# "VƏTƏN DAŞI" OLMAQ VƏ YA POEZİYADA VƏTƏN SEVGİSİNİN VƏ ZƏFƏRİN İZHARI

"Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı", - misraları ilə vətəndaşlıq konsepsiyasını irəli sürən ədəbiyyat nəhəngimiz Məmməd Araz böyük bir səmimiyyətlə yazırdı: "Məni şeirimdə gəz bir insan kimi, Qəlbimdə nə varsa ona demişəm. Anadan-bacıdan gizlətdiyimi, Kağızdan, qələmdən gizlətməmişəm". Mütəxəssislərin qənaətincə, hər hansı bir sənətkarın yaradıcılığındakı mətnlər müəllifin "yaradıcılıq aktı", hər bir söz müəllifin etirafı, onun avtobioqrafiyasını əks etdirən səhifələridir. Bu səhifələrdə şairin doğulub-böyüdüyü torpağın ab-havası, mühiti, cəmiyyətdə baş verən hadisələrə münasibəti, xalqının sevinci və kədəri dil açıb danışır. Doğulub-böyüdüyü vətən torpağının tarixi, təbiəti, gözəllikləri tərənnüm olunur, cəmiyyətdə baş verən tarixi hadisələrə münasibət bildirilir. Bu baxımdan "Poeziya təcrübə, hiss, həyəcan, intuisiya, məqsədyönlü düşüncədir. Hadisənin övladı və eyni zamanda məntiqin balasıdır".

20-ci əsri 1914-1991-ci illər arasında təhlil edən məşhur ingilis tarixçisi Eric Hobsbawma görə, 20-ci əsr - təqvimə görə deyil, tarix olaraq 1914-cü ildən, yəni Birinci Dünya Müharibəsindən sonra və 1991-ci ildən - dünyada qlobal dəyişikliklərin başlandığı, 1990-cı ildə Almaniyanın birləşməsi və 1991-ci ildə SSRİ-nin dağılması ilə sona çatır. 20-ci əsr Birinci Dünya müharibəsiylə (1914), Birinci Dünya müharibəsi isə 28 iyun 1914-cü ildə Avstriya-Macarıstan taxtının varisi Frans Ferdinandın ölüm ilə başladı. "Təqvimə görə deyil, tarix olaraq 1914-cü ildən, yəni Birinci Dünya Müharibəsindən başlayan 20-ci əsr" Azərbaycan üçün milli dövlətçilik tariximizdə həlledici və siyasi hadisələr baxımından əhəmiyyətli bir zaman kəsiyidir. Ən əhəmiyyət kəsb edən hadisə Azərbaycanın müstəqilliyinin elan edilməsidirsə (28 May 1918), sonrakı tarixi hadisələr, Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalı (28 aprel 1920), AXC-nin süqutu, Azərbaycanın müstəqilliyinə son qoyulması, Azərbaycan Sovet Sosialist Respublikasının yaranması 70 ildən sonra 1991-ci ildə xalqın bir daha öz dövlət müstəqilliyini bərpa etməsi, Azərbaycan Respublikasının yaradılmasıdır.

20-ci əsr Azərbaycan üçün Birinci Dünya Müharibəsi və ya AXC-nin qurulması ilə deyil, 1905-1906-cı illərdə ermənilərin azərbaycanlılara qarşı ilk irimiqyaslı silahlı çıxışları ilə başlamış (1905-1906), az sonra münaqişə erməni-azərbaycanlı qırğınlarına çevrilmiş, bütün Cənubi Qafqaz regionunu əhatə etmişdir.

20-ci əsrin əvvəlləri kimi, sonu təlatümlü oldu. 90-cı illərin əvvəllərində keçmiş SSRİ-nin süqutu ilə müstəqilliyimizi bərpa etmək üçün tarixi şərait yarandı. Müstəqilliyimizə gedən yol 20 Yanvardan keçdi. Azərbaycan 70 illik əsarətdən sonra öz müstəqilliyini bərpa etdi. Yeni tarix, qəhrəmanlıq tarixi yazıldı. Bütövlükdə, yaxın tariximizdə yaşanan faciələr, ermənilərin Azərbaycan torpaqlarını zəbt etməsi, 20 Yanvar, Qarabağın işğalı, Xocalı faciəsi, şəhidlər və s. hadisələr ədəbiyyatımızın içindən keçdi. Qələmini süngüyə çevirən şairlərimizin yaradıcılığında inikas etdi.

Qələmini süngüyə çevirən şairlərimizdən biri də AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor, Beynəlxalq Turan Elmlər Akademiyasının akademiki Vüqar Əhmədir.

Yazımızda Məmməd Arazın: "Məni şeirimdə gəz bir insan kimi, Qəlbimdə nə varsa ona demişəm", - misralarına söykənərək şairi dərin məzmunlu, oxunaqlı və milli mündəricəli yaradıcılığından, xüsusilə Qarabağa yazdığı şeirlərindən tanımağa çalışacayıq.

Qarabağ savaşımız kimi, professor Vüqar Əhmədin də Qarabağ mövzusunda yazdığı şeirləri də iki mərhələyə bölmək olar. Əslində, bu bölgünü dövrün poeziyasına aid etmək olar. Birinci Qarabağ savaşında poeziyamıza, torpaq itkisi, köçkünlük dərdi, Xocalı faciəsi və s. ağrı-acısı yüklənmişdirsə, İkinci Qarabağ savaşında isə poeziyamızda Vətən, azadlıq, qələbəyə çağrış, inam hissləri daha da güclənmişdi.

Şair Vüqar Əhmədin yaradıcılığında da Vətən, azadlıq, qələbəyə çağrış, inam aparıcı mövzuya çevrildi, yeni-yeni şeirlər yazıldı, yazılan şeirlərə nəğmələr qoşuldu. Şair Qarabağ həsrətini, Çıdır düzü nisgilini misralara pıçıldadı:

Həsrət qalıb ağlar gözüm üzünə,
Nəğmə qoşdum bayatına, sözünə,
Əlim çatmır əsir Cıdır düzünə,
Nəmli yanaq, cənnət-məkan Qarabağ.

Vüqar Əhmədin poeziyasından nümunə verdiyimiz misralar "cənnət-məkan Qarabağ"dan ayrı düşmüş şairin qəlb çırpıntılarıdır. Uzun illər Qarabağdan ayrı qalsaq da, bir gün də olsa, Qarabağı unutmadıq, yoxluğu ilə barışmadıq. Yuxularımızda görüşdük, sevgimizi yuxularımızda pıçıldadıq gözəl Qarabağımıza. Yuxularda qonaq getdik Şuşamıza. Şuşa həsrətinə dözə bilməyən, yuxularında Qarabağı ziyarət edən şair Vüqar Əhmədin həssas və gözəl duyğuları şeirlərində öz poetik ifadəsini tapdı:

Şuşanı yuxumda gördüm dün gecə,
Şəhərim bərbaddır, ilahi necə,
Oyaqkən, röyada, gündüz, həm gecə,
Cənnət bağındayam, Qarabağdayam.

Şuşanın yoxluğu ilə barışmayan, yuxularında Şuşanı ziyarət edən şair bir tərəfdən yuxuda Şuşanı ziyarət etməsinə sevinir, digər tərəfdən şəhərin "bərbad" vəziyyətinə üzülür. Dəyişməyən bir gün gördüyü yuxunun həqiqətə çevriləcəyinə inamıdır. Şairin, Qarabağa qovuşacağımıza, qələbəyə inam hissi güclüdür. O, bu hissi oxucusuna da ötürür.

Ümumiyyətlə, İkinci Qarabağ savaşında duyğu və düşüncələr qələbəyə çağrış və inam, zəfər müjdəsi vermək istəynə yönəlmişdir. Aprel döyüşləri (2016) kimi tarixləşən və Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnənən döyüşlər zəfərimizə atılan ilk qədəm oldu. Bu döyüşlərdə bəzi mövqelər: Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində düşməndən azad olundu. Qəhrəman ordumuz cinayətkar erməni rəhbərlərinin keçilməz erməni səngərləri haqqında yaratdığı mifi alt-üst etdi. Lələtəpə yüksəkliyi və onun ətrafındakı strateji cəhətdən mühüm ərazilər azad edildi. Tarixi zəfərimizin başlanğıcı sayılan Aprel döyüşləri qansız və qurbansız ötüşmədi. İgid oğullar vətən uğrunda canından keçərək tarixin yaddaşında əbədiləşdi. Azərbaycan Silahlı Qüvvələrinin general mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev hərbi əməliyyat zamanı şəhidlik zirvəsinə yüksəldi (14 iyun 2020).

Böyük zəfərimizin başlanğıcı olan Aprel döyüşləri Azərbaycan Silahlg Qüvvələrinin hərbi əməliyyatlar zamanı şəhid olan birinci və yeganə generalının, general Polad Həşimovun ölümü bütün Azərbaycanı yasa boğdu. Polad Həşimov və Aprel döyüşləri zamanı şəhidlik zirvəsinə ucalanlar əsrin yaddaşında və ədəbiyyatımızda əbədi yaşamaq haqqı qazandı. Vüqar Əhməd Polad Həşimova yazdığı "Polad iradəli ay, Polad Paşam" şeiri ilə onun şəhadətə yüksəlməsini və müqəddəs xatirəsini əbədiləşdirdi:

Şəhid oldu el uğrunda bir paşa,
Candan keçdi İlqar ilə o qoşa,
Behiştdəsən, ölməmisən! SƏN YAŞA!!!
Polad iradəli, ay Polad paşam.

Sənin ölümünə ellər ağlayır,
Çiçəklər ağlayır, güllər ağlayır,
Könüllər ağlayır, dillər ağlayır,
Polad iradəli, ay Polad paşam.

İLHAMLA getmisən döyüşə, cəngə,
Murdar düşmənimiz heçdi, bir çəngə,
Paşam, bənzəyirdin şirə, pələngə,
Polad iradəli, ay Polad paşam.

Qəlbi Şuşa ilə döyünən şair, "Qarabağdayam" şeirində yuxuda "cənnət bağı Qarabağ"ı görməsindən, daha doğrusu gördüklərindən: "Şuşanın bərbad" görkəmindən, "ürəyi yaralı Qarabağdan", Kəlbəcərdən, Laçından, bir milyon qaçqından bəhs edir:

Bu əllər qovacaq burdan yağını,
Səngər eyləyəcək Ağrı dağını,
Geri qaytaracaq Qarabağımı,
Cənnət bağındayam-Qarabağdayam,

Ürəyi yaralı Qarabağdayam.
Ağ atlı oğlanam-nağıllardayam,
Ər oğul-nər oğul oğullarlayam,
Nə qədər qan içrə boğulmaqdayam,
Cənnət bağındayam-Qarabağdayam,
Ürəyi yaralı Qarabağdayam.

Yuxuma girmişdi Kəlbəcər-Laçın,
Yuxuma girmişdi bir milyon qaçqın,
Ay Allah bu dərdi mən kimə açım?
Cənnət bağındayam-Qarabağdayam
Ürəyi yaralı Qarabağdayam

Şairin yüxusu çin oldu. Artıq şair qələbə ətirli Qarabağa, Şuşaya yuxularda getməyəcək. Şair yenə Şuşanı yuxusunda görür. Bu dəfə Qarabağ qələbə ətirlidir. Şair özü öz şeirinə nəzirə yazır, "qələbə ətirli" duyğularını dilə gətirir:

Şuşanı yuxumda gördüm dün gecə,
Şəhərim gözəldi ilahi necə,
Gecəykən röyada gündüz, həm gecə,
Cənnət bağındayam-Qarabağdayam,
Qələbə ətirli Qarabağdayam.
Müzəffər Azərbaycan ordusu "it kimi qovur yağını".
Bu əllər it kimi qovur yağını,
Səngər eylədik biz Ağrı dağını,
Geri qaytarırıq Qarabağımı,
Cənnət bağındayam-Qarabağdayam,
Qələbə ətirli Qarabağdayam.

"Ağ atlı oğlan", "Ər oğul-nər oğullarla Çıdır düzündə, İsa bulağında, "Cənnət bağında, "Qələbə ətirli Qarabağda"dır.

Xalq şairi Ramiz Rövşən müsahibələrinin birində dedi: "Müharibə necə bitəcəksə, ədəbiyyatımız da o cür olacaq!" Müharibə böyük zəfərimizlə bitdi. Ali Baş Komandan İlham Əliyev və müzəffər ordumuz Qarabağı düşmən tapdağından azad etdi. 44 günlük Vətən savaşımızda qəhrəman oğullarımız torpaq uğrunda canından keçdi. Tariximizdəki işğal sözü Zəfərlə əvəzləndi. Artıq qalib ölkənin qalib vətəndaşlarıyıq. Ən önəmlisi, ağrı ilə, kədərlə yüklənən şeirimiz artıq zəfər sevinci, zəfər qüruru ilə taclandı. Yalnız Qarabağ savaşında deyil, diplomatiya və informasiya cəbhəsindəki müharibədə də zəfərə imza atıldı. Ali Baş Komandan İlham Əliyevin əzminin, iradəsinin, qətiyyətli praqmatik siyasətinin, hərbi-sərkərdəlik məharətinin qanunauyğun nəticəsi, xalq-iqtidar birliyinin uğuru olan bu qələbə, müstəqil Azərbaycan dövlətinin və qəhrəman Azərbaycan Ordusunun zəfəridir.

Ata nəsihəti bu gün çin oldu,
Qayıtdı Şuşamız, gözəl gün oldu,
Qönçə arzularım, açdı gül oldu,
Cənnət bağındayam, Qarabağdayam,
Qələbə ətirli Qarabağdayam,

Bir kərə yüksəldi, enməz bayrağım,
Şuşa bayatımdır, Şuşa muğamım,
İlham Heydər oğlu-səndin gümanım,
100 illik Qələbə gətirdin bizə,
Səadət bəxş etdin ellərimizə.
Cənnət bağındayam, Qarabagdayam,
Azərbaycan adlı Qarabağdayam!

Vüqar Əhmədin "Şuşanın dağları başı vüqarlı" şeiri zəfər müjdəli, zəfər qoxuludur. Şair Şuşa şəhərinin qalib görkəmini, "qələbə ətirli Qarabağı", böyük zəfərimizi poetik şəkildə təqdim edir: Şuşanın dağları deyil, dumanlı, İndi bu dağlarım şahdı, sultandı, İndi gözəl Şuşa Azərbaycandı... Şuşanın dağları başı vüqarlı!

*(Davamı 16-cı səhifədə)*

KREDO

№ 18 (1274) 22 may 2025-ci il

# "VƏTƏN DAŞI" OLMAQ VƏ YA POEZİYADA VƏTƏN SEVGİSİNİN VƏ ZƏFƏRİN İZHARI

*(Əvvəli 7-ci səhifədə)*

Bu məqamda şair, bu zəfəri, bu qələbəni bizə bəxş edən, vətən torpaqlarını öz canları bahasına qoruyaraq şəhidlik məqamına yüksələn minlərlə qəhrəman oğulları da unutmur. Onun müqəddəs duyğuları "Şəhidim" şeirində misralara süzülür. Şeirlərində şəhidlərin ümumiləşmiş obrazını yaradan şair, kədərini, ağrısını poetik şəkildə ifadə edir:

Vətən torpağını qucan şəhidim,
Ruhları göylərə uçan şəhidim,
Torpağa qovuşdun haçan şəhidim?
Ömrü yarı qalan nakam şəhidim.

Hüznlü notların yerini zəfər sevinci və qüruru, qəhrəmanlıq, cəsurluq, mərdlik, düşmənə meydan oxumaq duyğularının yer aldığı, zəfərimizin sevincini yaşadığımız günlərdə şair haqlı olaraq torpaq uğrunda can qurban verən şəhidlərimizi xatırlayır. Şəhidlərimizin nigaran ruhunun bu qələbəyə sevindiyinə əmin olan şair yazır:

Şəhidlərin ruhu da qələbəyə sevinir,
Millətimin ürəyi tam zəfərlə döyünür,
İndi dünya TÜRKLƏRİ Sizin ilə öyünür,
Sevir Azərbaycanım - Ali Baş Komandanım!
Düşmən artıq can üstə, düşmənin verdiyi candır,
Bütün cahan bilir ki, Qarabağ Azərbaycandır!
Sayəndə vətənimiz qalib Azərbaycandır,
Sevir Azərbaycanım - Ali Baş Komandanım!

Bütövlükdə, Vüqar Əhmədin yaradıcılığında 44 günlük Vətən Müharibəsində Azərbaycan ordusunun qəhrəmanlıqları, Ali Baş Komandan İlham Əliyevin müdrik və uzaqgörənliyi sayəsində düşmən üzərində tarixi qələbənin tərənnümü əsl vətəndaş mövqeyi ilə inikas edir. Artıq "Şuşanın başı dumanlı deyil, vüqarlı"dır, başının dumanı - çəni çəkilib.

Şuşanın dağları deyil dumanlı,
İndi bu dağlarım şahdı, sultandı,
İndi gözəl Şuşa Azərbaycandı,
Şuşanın dağları başı vüqarlı!

İndi çəkilibdir dumanı, çəni,
Xarı bülbül dolu çölü, çəməni,
Şuşa başdan- başa uca səməni,
Şuşanın dağları başı vüqarlı.

Azərbaycan musiqisinin qüdrətli sənətkarı Xan Şuşinskinin "Şuşanın dağları başı dumanlı..." misraları ilə başlayan dillər əzbəri olan mahnısının adı verilən şeir, "Azərbaycanın ruhu" olan Şuşanın işğaldan azad olunması şərəfinə yazılıb Daha Şuşamızın başı dumanlı deyil, vüqarlıdır. Burada "Xanın sədası havalanır", Pənah xanın, İbrahim xanın ruhu şaddır:

Yenə havalanır sədası Xanın,
Ruhu şad İbrahim, həm Pənah Xanın,
Bu şəhər ruhudur Azərbaycanın,
Şuşanın dağları başı vüqarlı.

44 günlük Vətən savaşımızda tariximizə dah bir şanlı səhifə yazıldı: "Dəmir yumruq" əməliyyatı. "Dəmir yumruq" əməliyyatı rəşadətli ordumuzun apardığı mübarizə ilə yanaşı, Müzəffər Ali Baş Komandanın siyasi və diplomatik mübarizəsi dünya azərbaycanlılarının həmrəyliyinin və birliyinin nümayişi oldu. Ədalət bərpa olundu, xeyir şər üzərində qələbə çaldı. Beynəlxalq qurumların illərlə edə bilmədiyini Azərbaycan əsgəri 44 gündə etdi. Bizlərə Böyük Zəfər sevinci qazandırdı. Üçrəngli bayrağımız ata-babalardan bizə miras qalan əzəli və əbədi torpaqlarımızda qürurla dalğalandı:

Dəmir yumruq verdi Şuşanı bizə,
Bir sevinc gətirdi ellərimizə,
Zəfər sözü gəldi dillərimizə,
Şuşanın dağları başı vüqarlı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 yanvar 2022 - ci il tarixli sərəncamı ilə 2022-ci il "Şuşa İli" elan edildi. Sərəncamda deyilir: "Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır". Hər bir azərbaycanlı kimi, Şuşa sevgisi "vətən daşı" Vüqar Əhmədin mənəvi varlığının bir parçası, yaradıcılığının aparıcı mövzularından biridir. Şairin Zəfər sevincli, qələbə vüqarlı, Qarabağ sevgisindən yoğrulmuş şeirləri bədii sənətkarlıq məziyyətləri və məna tutumu ilə də diqqətçəkicidir.

Şuşaya qar yağır, şəhər dümağdı,
Kafir ayağının silinir izi.
Düşməni qandırdıq - burda qonaqdı,
Şəhər qəribsəyib, səsləyir bizi.
Qar bürüyüb hər çiçəyi, hər otu,
Əsgərlərim oynayırlar qartopu,
Deməyin ki, Vüqar yeyib dilotu,
Qarabağa hər gün deyir bir şeir,
Qarabağım, Azərbaycandır!- deyir.

Vidadinin "Küllu Qarabağın abi-həyatı, Nərmü-nazik bayatıdır, bayatı" - deyə, vəsf etdiyi Qarabağa yazılan şeirlər, o cümlədən, Vüqar Əhmədin Qarabağa-Şuşaya yazdığı şeirlər sevginin və zəfərin izharı kimi musiqili və ahəngdardır. Ruhunuza əhsən, şair!



*Lütviyyə ƏSGƏRZADƏ,*
*filologiya elmləri doktoru*